Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası




# Xocalı qan yaddaşımız

**Xocalı soyqırımının otuzuncu ildönümü münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2022**

**Tərtibçi:** **Könül Səmədzadə**

**Redaktor:** **Ruhiyyə Məmmədli**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**“Xocalı qan yaddaşımız”-** Xocalı soyqırımının otuzuncu ildönümü münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed. S. Könül; ixt.red. və burax. məsul Ş. Qəmbərova; red. R.Məmmədli - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2022. – 64s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2022**

## Xocalı soyqırımının otuzuncu ildönümü haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

“Azərbaycan tarixinin ən dəhşətli səhifələrindən biri olan Xocalı soyqırımından 30 il ötür. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini kobudcasına pozaraq keçmiş sovet ordusunun Xankəndidə yerləşən 366-cı alayının iştirakı ilə Xocalı şəhərinə hücum etdi və dinc əhaliyə misli görünməmiş qəddarlıqla divan tutdu.

Xocalı soyqırımı zamanı 106 qadın, 63 uşaq, 70 qoca olmaqla 613 şəxs məhz azərbaycanlı olduqlarına görə ağlasığmaz vəhşiliklə qətlə yetirildi, 487 dinc sakin ağır yaralandı, 1275 nəfər isə girov götürüldü.

Xocalı qətliamı Ermənistanın uzun illərdən bəri Azərbaycana qarşı həyata keçirdiyi planlaşdırılmış etnik təmizləmə və təcavüz siyasətinin tərkib hissəsi idi. Soyqırımının törədilməsinə görə Ermənistanın o zamankı siyasi-hərbi rəhbərliyi məsuliyyət daşıyır.

Ermənistanın azərbaycanlılara qarşı törətdiyi Xocalı soyqırımı, eləcə də Bağanıs Ayrım, Qaradağlı, Ağdaban və Başlıbel qətliamları ilə müşayiət olunan hərbi təcavüzü nəticəsində torpaqlarımızın 20 faizə qədəri işğal edildi, 20 min vətəndaşımız qətlə yetirildi, 50 min nəfərdən artıq adam yaralandı və əlil oldu. Azərbaycan böyük humanitar fəlakətlə üz-üzə qaldı.

Ermənistanın daim mülki əhalini hədəf seçən təxribatlarına və hərbi təcavüzünə cavab olaraq, 2020-ci il sentyabrın 27-də Azərbaycan xalqı əzəli torpaqlarının işğaldan qurtarılması, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərinin yerinə yetirilməsi və tarixi ədalətin bərpa edilməsi uğrunda Vətən müharibəsinə qalxdı.

Vətən müharibəsinin gedişatında Ermənistanın Gəncəni, Bərdəni, digər şəhər və kəndlərimizi kütləvi məhvetmə imkanlarına malik ballistik və reaktiv raketlərlə, kasetli bombalarla hədəfə alması bir daha sübut etdi ki, zamanla metodlar dəyişsə də, mülki əhaliyə qarşı qanlı cinayətlər törətmək Ermənistan tərəfinin daim həyata keçirdiyi dövlət siyasətidir. 44 gün sürən döyüşlər nəticəsində rəşadətli Azərbaycan Ordusu parlaq qələbə qazanaraq doğma torpaqlarımızı işğaldan azad etdi.

Haqq səsimizin dünyaya çatdırılması və Xocalı soyqırımının beynəlxalq aləmdə tanıdılması üçün ötən illər ərzində məqsədyönlü fəaliyyət göstərilmiş, 2008-ci ildən isə bu fəaliyyət "Xocalıya ədalət" beynəlxalq kampaniyası ilə geniş vüsət almışdır. Hazırda Xocalı soyqırımı bir sıra ölkələr tərəfindən tanınmış və faciəyə beynəlxalq siyasi qiymət verilmişdir.

Xocalı soyqırımına hüquqi qiymət verilməli və bu dəhşətli faciəni törədənlər öz layiqli cəzalarını almalıdırlar.

Azərbaycan xalqı heç bir vaxt Xocalı faciəsini unutmayacaq.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Xocalı soyqırımı zamanı qətlə yetirilmiş

soydaşlarımızın əziz xatirəsini faciənin otuzuncu ildönümü ərəfəsində bir daha dərin hüznlə yad edərək qərara alıram:

Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Xocalı soyqırımının otuzuncu ildönümü ilə əlaqədar tədbirlər planı hazırlayıb onun həyata keçirilməsini təmin etsin".

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 28 yanvar 2022-ci il



## Bölmə I

## XX əsrin faciəsi-Xocalı soyqırımı

**1992-ci il fevralın 26-na keçən gecə misli görünməmiş faciə törədildi. Erməni silahlı birləşmələri keçmiş SSRİ-nin Dağlıq Qarabağda yerləşən 366-cı motoatıcı alayının əsgər və zabitləri ilə birlikdə Xocalı soyqırımını törətdilər.**

7 min nəfərə yaxın əhalisi olan Xocalı şəhəri topların və zirehli teknikanın köməyi ilə yerlə yeksan edildi. Mühasirədə olan şəhərin bütün əhalisi-körpə uşaqdan tutmuş, əlsiz-ayaqsız qocalaradək ucdantutma məhv edildi, bir çoxu isə əsir götürüldü. Günahsız, əliyalın insanlar təqib edilərək çöllərdə və meşələrdə güllələndilər, meyitlərin dərisini soydular, bədən üzvlərini doğradılar.

Dünya mətbuatı Xocalı adlı bir şəhərin erməni vandalları tərəfindən Yer üzündən silinməsi, əhalisinin soyqırımına məruz qalması haqqında xəbərlər və hadisə yerindən reportajlar yaydı. Çox təəssüf ki, sonradan Azərbaycan xalqının bu faciəsinə də biganəlik göstərildi, fəryadımızı özümüzdən başqa kimsə eşitmək istəmədi. Təqdirəlayiqdir ki, son illər istər ölkəmizdə, istərsə də xarici ölkələrdə bir çox kitablar yazılmış, Xocalı soyqırımı qurbanlarının xatirəsinə abidələr ucaldılmış, dünya dövlətlərinə, xalqlarına və beynəlxalq təşkilatlara müraciətlər ünvanlanmış, xarici ölkələrdəki səfirlik və nümayəndəliklərimizdə, diaspor təşkilatlarında bu dəhşətli hadisə ilə bağlı mətbuat konfransları, anma mərasimləri keçirilmiş, xarici mətbuat və teleradio kanallarında materiallar yayımlanmışdır.

Bəli, Xalqımızın böyük faciələrindən biri olan Xocalı soyqırımından 30 il keçir. Erməni təcavüzkarlarının xalqımıza qarşı

törətdiyi bu kütləvi qətliamda-Xocalı faciəsində 613 nəfərin, o cümlədən 106 qadın, 63 uşaq, 70 qocanın həyatına son qoyulmuşdur. 1275 dinc sakin girov götürülmüş, onlardan 150 nəfərin taleyi hələ də məlum deyil, 475 nəfər şikəst olmuşdur. 8 ailənin bütün üzvləri amansızlıqla öldürülmüşdür. 25 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirmişdir. Bu cinayətdə 56 nəfər xüsusi qəddarlıq və amansızlıqla qətlə yetirilmişdir. Bu soyqırımına dünya birliyinin indiyədək laqeyd yanaşması ikili siyasətin, riyakarlığın bariz nümunəsidir. Çünki bəşər tarixində Xocalı soyqırımına bənzər dəhşətli facilər nadir hallarda baş verib. Əgər dünya birliyi bu faciə ilə əlaqədar təcavüzkara qarşı hər hansı bir tədbir görmürsə, o zaman onların insan hüquqlarından danışmağa mənəvi haqları çatmır. Baxmayaraq ki, bir çox diplomatlar Xocalı faciəsi üzrə beynəlxalq tribunal yaratmaqla, bu faciəyə görə cavabdeh onların cinayət məsuliyyətinə cəlb edilməsi barədə təkliflər səsləndiriblər, nəticədə isə, həmin təklifi irəli sürənlər çox ciddi təqiblərlə üz-üzə qalıblar.

Bəli, yaxın tariximizin faciəli səhifələrindən biri kimi Xocalı soyqırımı xalqımızın tarixinə qan yaddaşı kimi həkk olundu.

## Bölmə II

## Yubiley tədbirlərinin keçirilməsi

Dünyada az belə faciə var ki, Xocalıda törədilən vəhşiliklərlə müqayisə edilsin, mənəvi dəyərlərə zidd olan qətl və zorakılıq kimi qeyri-insani cinayət əməlləri törədilsin. 25-dən 26-na keçən gecə Xocalıda yüzlərlə əliyalın, müdafiəsiz sakin erməni işğalçılarının amansız hücumuna məruz qalaraq məhv edildi. Qocalara, uşaqlara, hətta hamilə qadınlara belə rəhm edilmədi.

Bəli, elə bu baxımdan da amansızlıqla və ağlasığmaz vəhşiliklə həyata keçirilən Xocalı qətliamını daima təbliğ edərək gələcək nəsillərə çatdırmaq biz kitabxanaçıların da borcudur. Bu gün hər bir azərbaycanlının qarşısında mühüm vəzifələrdən biri Xocalı soyqırımı və

bütövlükdə ermənilərin Dağlıq Qarabağda törətdikləri vəhşiliklər haqqında həqiqətləri olduğu kimi dünya ictimaiyyətinə çatdırmaqdır. Bu, Xocalı şəhidlərinin ruhu qarşısında bizim vətəndaşlıq və insanlıq borcumuzdur. Digər tərəfdən, faciənin beynəlxalq miqyasda əsl hüquqi-siyasi qiymət alması, onun təşkilatçılarının cəzalandırılması, insanlığa qarşı yönəlmiş belə qəddar aktların təkrarlanmaması üçün mühüm şərtdir. Azərbaycan xalqına qarşı həyata keçirilən bu müdhiş qətliamla bağlı həqiqətlərin dünyaya yayılması, qan yaddaşımızın gələcək nəsillərə çatdırılmasında biz kitabxanaçıların da üzərinə böyük məsuliyyət düşür. Məhz elə bu baxımdan  kitabxanaçının Xocalı soyqırımı haqqında məlumatları geniş və kifayət qədər olmalı, qəhrəmanlıq səhifələrimizi oxuculara yaxından tanıtmalı, onları bu ruhda tərbiyə etməlidirlər. Hər bir kitabxanaçı istər məktəbli, istərsə də tələbələri bu qətliam ilə bağlı məlumatlandırmalı, onlara vətənpərvərlik hisslərini aşılamalıdır. Xocalı faciəsi barədə həqiqətlərin daha qlobal miqyasda yayılması istiqamətində kitabxanalarda daimi olaraq ənənəvi və virtual kitab sərgilərinin, yeni kitabların təqdimatının keçirilməsi, elektron resursların hazırlanması, Xocalı haqqında faktların, sənədlərin video görüntülər vasitəsi ilə nümayiş etdirilməsi, şəhid ailələri və faciənin şahidləri ilə görüşlər, anım mərasimlərinin keçirilməsi, məlumatlandırma və təbliğat xarakterli çap məhsullarının (buklet, vərəqə, təqvim və s.) nəşri və s. tədbirlər həyata keçirilməlidir.

F.Köçərli adına Respublika Uşaq kitabxanası olaraq, hər il olduğu kimi, bu il də  Xocalı soyqırımının 30 illiyi ilə bağlı silsilə tədbirlərin keçirilməsini qarşımıza məqsəd qoymuşuq. Tərtib etdiyimiz plana əsasən kitabxanamızda ilk növbədə Xocalı soyqırımının 30 illiyi münasibətilə kitab və foto sərgi nümayiş olunur. Sərgilər kitabxananın oxu zalında təşkil olunur. Bildiyiniz kimi, sərgilər müxtəlif başlıqlar altında keçirilə bilər. Məsələn: ***"XX əsrin faciəsi-Xocalı soyqırımı", "Xocalı-viran qalan yurd yerimiz", "Xocalı-Xalqımızın qan yaddaşı", "Xocalı genosidi", "Xocalı soyqırımı-vəhşiliyin görünməmiş təzahürü", "Xocalı soyqırımı: tariximizin dönüş nöqtəsi", "Xocalı soyqırımı insanlığa qarşı cinayətdir", "Bəşər tarixinin dəhşətli faciəsi", "Tariximizin acı***

***həqiqətləri”*** və s. **“Xocalı-xalqımızın qan yaddaşı”** adlı sərginin nümunəsini veririk:

1.Başlıq: Xocalı-xalqımızın qan yaddaşı

2. Xocalı soyqırımı ilə bağlı foto sərgi

3.Görkəmli şəxsiyyətlərin Xocalı soyqırımı haqqında söylədikləri

4.Kitabların və bukletlərin sərgisi

5.Dövrü mətbuatda çap olunmuş qəzət və jurnal materiallarının nümayişi

6.Şeir parçaçı

Xocalıdan ad qaldı,

Dillərdə imdad qaldı,

**Görkəmli şəxsiyyətlərin Xocalı soyqırımı haqqında söylədikləri**

1.“Xalqımızın çox qəhrəman, igid övladları torpaqlarımızın uğrunda vuruşaraq şəhid olublar. Ancaq bütün bu tarixin içində Xocalı faciəsinin xüsusi yeri var. O da ondan ibarətdir ki, bir tərədən bu, hər bir Xocalı sakininin öz torpağına, millətinə, Vətəninə sədaqətliyinin nümunəsidir, ikinci tərəfdən də Ermənistanın millətçi, vəhşi qüvvələri tərəfindən Azərbaycana qarşı edilən soyqırımıdır-vəhşiliyin görünməmiş təzahürüdür”.

**Heydər Əliyev,**
**Ümumilli lider**

2."Xocalı faciəsi iki yüz ildən çox müddətdə erməni millətçilərinin xalqımıza qarşı apardığı soyqırımı siyasətinin qanlı səhifəsidir."

**Heydər Əliyev,**
**Ümumilli lider**

3."Bütövlükdə Azərbaycan xalqına qarşı yönəldilmiş Xocalı soyqırımı öz ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində bir

vəhşilik aktıdır. Bu soyqırım, eyni zamanda, bütün bəşəriyyətə qarşı tarixi bir cinayətdir."

**Heydər Əliyev,**
**Ümummilli lider**

4.İnanıram ki, Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmlənməsi, sərhədlərinin toxunulmazlığının və ərazi bütövlüyünün təmin edilməsi Xocalı şəhidlərinə və xalqımızın bütün qəhrəman övladlarına ucaldılan möhtəşəm abidə olacaqdır.”

**Heydər Əliyev,**
**Ümummilli lider**

5.Faşistliyin, vəhşiliyin dərəcəsi yoxdur. Erməni işğalçılarının hərəkətləri məhz bunu sübut edir.

**Heydər Əliyev,**
**Ümummilli lider**

1992-ci il fevralın 26-da xalqımız öz taleyinin ən ağır və acılı anlarından birini yaşadı. Həmin gün qədimAzərbaycan şəhəri Xocalı erməni hərbi birləşmələri tərəfindən yer üzündən silindi.

...Xocalı faciəsi təsadüfi hadisə deyildi. Bu, iki yüz ildən artıq müddətdə davakar erməni millətçilərinin Azərbaycan xalqına qarşı yürütdüyü soyqırımı və etnik təmizləmə siyasətinin tərkib hissəsi idi.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

6."Mən əminəm ki, gün gələcək Xocalı faciəsini törədən, dinc əhaliyə qarşı qəddarlıq göstərən, dinc əhalini məhv edən erməni cinayətkarları məhkəmə qarşısında cavab verəcəklər."

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

7. "Xocalı faciəsi erməni millətçilərinin yüzilliklər boyu türk və Azərbaycan xalqlarına qarşı apardığı soyqırımı və etnik təmizləmə siyasətinin qanlı səhifəsi idi."

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

8.Heydər Əliev Fondu və "Xocalıya Ədalət" kampaniyası Xocalı həqiqətlərini dünya ictimaiyyətinə çatdırmağı qarşısına məqsəd qoymuşdur. Bu gün etdiklərimizin heç biri Xocalı soyqırımının yaralarını sağalda bilməz. Bizim edə biləcəyimiz yalnız həmin dəhşətli tarixi  yad etmək və qətliam zamanı öldürülən və ya ömürlük əlil olan uşaq, qadın və kişiləri unutmamaqdır.

**Leyla Əliyeva,**
**Heydər Əliyev Fondunun vitse-prezidenti**

9.Hər kəsi bu faciə barədə məlumatları öz ölkəsində yaymaq üçün bizim kampaniyaya qoşulmağa çağırıram. Hesab edirəm ki, sizin dəstəyinizlə Xocalıda ədalət bərpa olunacaq.

**Leyla Əliyeva,**
**Heydər Əliyev Fondunun vitse-prezidenti**

10.Xocalı Yer kürəsinin xəritəsində kiçicik bir nöqtədir, amma bu balaca məkanda 1992-ci ilin 26 fevralında baş vermiş soyqırımı hadisəsi oranı

bizim müasiri olduğumuz illər və bütün gələcək tarix üçün insanlığın diqqət mərkəzində əbədi ələm və ibrət nümunəsi kimi qalmağa məhkum etdi.

**Rafael Hüseynov,**
**Millət vəkili, AMEA-nın müxbir üzvü**

11.Faciə ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında Heydər Əliyev fondunun xüsusi xidmətləri vardır.

**Əliqismət Bədəlov,**
**jurnalist**

12.XX əsrin sonunda ermənilərin Xocalıda törətdikləri soyqırımı dünya tarixində yaddaşlardan heç vaxt silinməyən Xatın, Ruanda, Srebrenitsa və Holokost kimi dəhşətli faciələrdən heç də geri qalmır.

**Əli Həsənov,**
**tarixçi, yazar**

13.Xocalıdakı vəhşiliklərə dünya ictimaiyyətinin gözündə heç nə ilə haqq qazandırmaq olmaz. Bu qətliamı törədənlər isə bununla sanki öyünürmüşlər kimi danışırdılar.

**R.Patrik,**
**İngiltərənin “Fant men nyus” teleşirkətinin müxbiri**

14.Ermənilər Xocalıya hücum etmişlər. Bütün dünya eybəcər hala salınmış meyitlərin şahidi oldu. Azərbaycanlılardan çoxlu sayda ölən var.

**“Krual Eveneman” jurnalı, Paris 1992-ci il**

Təcavüzkar erməni millətçiləri tərəfindən xalqımıza qarşı iki yüz ilə yaxın bir dövrdə yeridilən soyqırımı siyasətinin məqsədi azərbaycanlıları tarixi torpaqlarından qovmaq, xarici havadarlarının köməyi ilə həmin yerlərdə Ermənistan dövləti yaratmaq olub. Bu mənfur

ideyanı reallaşdırmaq istiqamətində ardıcıl olaraq hərbi, ideoloji və təşkilati xarakterli tədbirlər həyata keçirilib. Azərbaycanlılar tədricən doğma torpaqlarından qovulub, onların ərazilərində başqa ölkələrindən köçürülmüş ermənilər məskunlaşdırılıb. Keçmişin üzərindən heç zaman sükutla adlamaq olmaz deyərək, düz 30 ildir ki, biz Qan yaddaşımız, Xocalı yaddaşımız deyib, bu günü matəmlə yad edirik.

F.Köçərli adına Respublika Uşaq Kitabxanasında Xocalı soyqırımının otuzuncu ildönümünə həsr olunmuş "Xocalı soyqırımını unutma!" adlı rəsm müsabiqəsi də təşkil olunur. Müsabiqə orta məktəb, lisey və gimnaziya şagirdləri arasında keçirilir. Müsabiqənin məqsədi Xocalı faciəsinin qurbanlarını ehtiramla yad etmək, məktəblilər arasında milli vətənpərvərlik ruhunu yüksəltmək, gənc nəslə tarixi həqiqətləri çatdırmaq və istedadlı şagirdlərin yaradıcılıq potensiallarını üzə çıxarmaqdan ibarətdir. Rəsm müsabiqəsinin gedişatında oxucular Xocalı soyqırımı ilə bağlı yazılmış bayatılar da səsləndirirlər. Bayatılardan bir neçəsini sizlərə təqdim edirik. Qeyd edək ki, bayatıların müəllifi Zərəngiz Dəmirçi Qayalıdır.

Xocalım bir gül idi,
Vətənimdə, elimdə!
Yanıqlı bayatıdır,
İndi ana dilimdə!

Əzizim, qandı, haray!
Dörd yanım qandı, haray!
Namərdlərin əlində,
Xocalım yandı haray!

Əzizim, nədən oldu?
Sovulub gedən oldu.
Xocalı tək el yandı,
Qəlb zədən-zədən oldu!

Əzizim, nədən deyim?
Ruh deyim, bədən deyim,
Xocalı oda yandı,
Ağını nədən deyim?

Əzizim, atmadım mən,
Oyaqdım, yatmadım mən,
Xocalı tək torpağı,
İtirdim, satmadım mən!

Əzizim, ucdu neylim,
Əlimdən ucdu neylim?
İndi Xocalı ruhu,
Bir qərib quşdu, neylim?

Atım var, yüyuənim yox!
Qapım var, döyənim yox!
Ədalətim tapdanır,
Haqqımı deyənim yox!

Şumlandı düzün, dünya!
Kor oldu gözüm, dünya!
Bu qədər səbr elədik,
Hanı bəs, sözüm dünya!

Mərdin evi talanar,
İgid qanı yalanar,
Yağlı tikə başına
Quduz itlər dolanar!

Xırman üstü dən olur,
Çox gəlib gedən olur.

Fələkdə nə qaydadı?
Zülm üstdən sitəm olur.

Rəsm müsabiqəsinin sonunda iştirak edən qaliblər münsiflər heyəti və kitabxananın müdriyyəti tərəfindən seçilib, mükafatlandırılır.

**“Xocalı soyqırımını unutma!”**
















XOCALI
Ağamirzayeva Nərmin 7r


İKİ DEVLET, BİR MİLLET, TEK YÜREK




Xocalı

İnsanlığa və bəşəriyyətə qarşı ən qanlı cinayətlərdən olan Xocalı soyqırımının otuzuncu ildönümüdür. XX əsrin sonunda dünyanın gözü qarşısında baş vermiş belə kütləvi qırğın hadisəsi öz amansızlığına və qəddarlığına görə təkcə Azərbaycan xalqına qarşı deyil, bütövlükdə bəşəriyyətə və insanlığa qarşı törədilmiş cinayət idi. Xocalı soyqırımının tanınması ilə bağlı keçirilən tədbirlərdən biri də dəyirmi masadır. Xocalı şəhidlərinin fotasərgisinə  və Xocalı soyqırımı haqqında nəşr olunmuş kitabların, dövrü mətbuata baxış keçiriləndən sonra tədbirə dəvət olunan Xocalı faciəsinin canlı şahidləri həmin hadisədən, ermənilərin törətdiyi vəhşiliklərdən danışdılar. Qonaqlar  çıxışlarında Xocalı faciəsinin səbəblərini, onun ağır nəticələrini, faciə nəticəsində xalqımıza vurulan maddi və mənəvi zərərləri iştirakçılara çatdırdılar. Tədbirin sonunda Xocalı Soyqırımı haqqında ürək ağrısı ilə danışan qonaqlar sonda şəhidlərə rəhmət, ailələrinə səbr dilədilər.

XX əsrin faciəsi-Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar keçiriləcək silsilə tədbirlərdən biri də şeir müsabiqəsidir.  Şeir müsabiqəsinin keçirilməsində məqsədimiz uşaqlarda şeiri duymaq, şeiri basa düşmək və şeiri intonasiya ilə demək bacarığını  üzə çıxarmaqdan ibarətdir. Şeiri intonasiya ilə söyləyə bilən oxucular münsiflər tərəfindən I, II, III yerlər üzrə təltif olunurlar. Tədbirdə Xocalı yanğısı, Xocalı nisgili ilə bağlı yazılmış  bir çox şeirlərdən istifadə etmək olar. Müəllifi Zeynal Vəfaya aid olan "Özü boyda tabut oldu Xocalı" adlı şeiri oxucuların ifasında təqdim edirik. Oxucular səhnəyə daxil olur.

…Mən hardayam qadir Allah,
Hardayam?
İçim zülmət, çölüm zülmət,
dardayam.
Ətrafımda yalquzaqlar ulaşır,
Hara qədəm qoyuramsa, ayağım,

Ölənlərin qanlarına bulaşır!
Sakinləri otlaq kimi biçilmiş,
Al qanları şərab kimi içilmiş,
Sahibi yox məzarlıqmı bu şəhər?
Özü boyda külü qalıb, közü yox,
Bir quruca adı qalıb, özü yox!
Gözlər gördüm, neştər ilə oyulmuş,
Üzlər gördüm, dəriləri soyulmuş.
Kim doğrayıb bu günahsız qolları,
Cəsədlərlə doldurublar yolları.
Baltalanmış başlar gördüm, bədən yox,
Nədən yoxdur,
Nədən yoxdur,
Nədən yox?!

Harda batıb qalmısan sən,
Harda yatıb qalmısan sən,
Ey dünyanın sahibi?
Kəsik başda qana batmış örpəyə,
Daş divara mismarlanmış körpəyə,
Necə baxım, necə mən!
Allah, bu qış necə qanlı fəsilmiş,
Qadın gördüm mən döşləri kəsilmiş,
Bu daşnaklar nə yırtıcı nəsilmiş…
Yer üzündə vəhşilikdə təkdilər,
Neçə-neçə türk oğlunun köksünü
Parçalayıb xaç nişanı çəkdilər.
Bu nə dəhşət,
Bu nə vəhşət,
İlahi!!!
Sakit baxa bilərəmmi səncə mən,
Hər ayağı bir budağa bağlanıb,
Ortasından şaqqalanmış gəncə mən,

İlahi!
Yaxşı baxın o biçarə, qarıya,
Nəvəsinin sümüklərin toplayır
Kül içində, hey zarıya-zarıya.
Gəl gözümdən milyard gözə yaş daşı,
Özü boyda bir məzardır Xocalı,
Sanki mənəm bu gün onun baş daşı!
Dilçəyindən qoparılmış dillərin,
Ən sonuncu axır vida sözüyəm.
Cavanların giləlari bıçaqla,
Mehvərindən çıxarılmış gözüyəm.
Tonqallarda yandırılan çağalar
Toplumunun çırtıldayan közüyəm,
Xocalının özüyəm.

Niyə tanrı seçmir ağı qaradan,
Körpələrin gözlərini çıxarıb,
Giləsindən boyunbağı yaradan
Bu qatillər zümrəsinin qətlinə,
Niyə axı fərman vermir Yaradan?

Nə olsun ki, ömür tanrı payıdır,
Yoxsa o da qəlbi xalqa qapalı,
Daş ürəkli bir oliqarx tayıdır?
Bunun üçün bəlkə çox vaxt duamız,
Qapısından əli yalın qayıdır?

Heç kəs məni öz "Mən"inəqatmadı,
Yeddi milyard allahdaşın yeddisi,
Xocalımın harayına çatmadı.

Naqasaki, xatın, Sonqmi biçimdə,

Bir şəhəri öldürüblər içimdə.
Bəşəriyyət lalmı, karmı, kordumu,
Biganələr dünyasiylə döyüşə
Göndərimmi indi qəzəb ordumu?

Bir yad quşa daş atdıqmı məgər biz,
Xocalı təhk günahsız bir şəhəri,
Avropada yandırsaydıq əgər biz,
Dözərdimi qəlbi paslı dəmirlər?
Bizi məşhər ayağına çəkərdi,
Qan möhürlü qətnamələr, əmirlər.

Bir şəhəri yer üzündən sildilər,
Silən kimdi? Başbilənlər bildilər.
Yeri tutmur, göyü tutmur zillətim,
Bu dünyada min şəhərdən birindən,
Baş sağlığı eşitmədi millətim.

Niyə axı tənhalıqda qocalım,
Özü boyda tabut oldu Xocalım.
Bir dost tapılmadı cahanda,
Qatillərə nifrət təbli çaldıra,
Bu tabutu öz çiyninə qaldıra.

Millətinin sayı qədər insanı,
Qırıb-tökən vəhşilərə nə deyim,
Haqqım varmı yaşamına "hə" deyim?

Qəzəb ilə, nifrət ilə dolmasam,
Üzərindən yüz Xocalı qatili
Asılmış bir dar ağacı olmasam,
Allah məni bağışlamaz ölüncə.
Gör nə deyib bir əcnəbi rahibi:

“Əgər olsam okeanlar sahibi,
Susuzluqdan yana-yana zillətə
Düçar olar o yırtıcı millətə,
Bir qətrəmi. bir damlamı qıymaram”.

Beş qitəlik zəlzələdir harayım,
Xocalı tək topdağıtmaz sarayım,
Külə dönüb…kimdən kömək arayım?
Bütövlüyə axınlaşa bilməyən,
Bir-birinə bəlkə 14 əsrdə,
14 addım yaxınlaşa bilməyən,
Dər ül-islam dünyasından bircəsi
Qəzəbini qəzəbimə qatmadı,
Xocalımın harayına çatmadı”
Dindaşına heç vaxt hayan olmayıb,
Özsüzlükdə tək özünü yaşatdı.
Şeytan dolu, iftit dolu Hayastan
Böyründəkən, kəbədə
O xəyali şeytanlara daş atdı.
Hayastana atılsaydı o daşlar
Qan düşmənim Daşnakstan bölgəsi,
O şeytanlar, o iblislər ölkəsi,
İndi torpaq altındaydı bəlkə də.
Axşam idi daha dərya qanımız,
Canlı şeytan zümrəsindən dünyada,
Birdəfəlik qurtarardı canımız.

Bir səs dəydi qulağıma…bu nə səs?
-Ömrü talan, qəlbi talan,
Səmalarda qanad çalan
Bir ananın ruhuyam mən.
Bir quş idim…qonmaq üçün
Bir Xocalı talam vardı,

İndi isə talasızam.
Üç körpəcə balam vardı
Tikə-tilə doğradılar,
İndi artıq balasızam.
Qocalanda söykənməyə
Üç möhtəşəm qalam vardı,
Dağıtdılar…qalasızam.
Xocalıda gözlərimi
Çıxardılar…gözümsüzəm.
Dilçəyimi boğazımdan
Qopardılar…sözümsüzəm.
Vətən adlı ocağımı
Söndürdülər…közümsüzəm
Dözümümü öldürdülər,
Bu millətin ürəyinə
Hardan alıb dözüm süzəm?
Bəlkə dözüm yetər daha,
İstəmirəm mən tanrıdan
Borc alaraq özüm süzəm.

Səmalarda qanad çalan
Ruham indi…Xocalısız.
Qadir Allah ürəyimə
Bircə damla Xocalı sız,
Dözəmmirəm Xocalısız.

Ölüm yükü raketləri,
Səma boyu süzdürənlər,
Ey İraqı, Fələstini
Qan selində süzdürdürənlər,
Ürəyimin sən Qarabağ,
Şuşa, Laçın, Ağdam adlı
Tellərini niyə kəsdin?

Yoxsa bizi yer üzündən
Silməkmidi sənin qəsdin?
Sanmayın ki, işğalçıya
Dayaq olmaq dəyanətdir,
Sanmayın ki, inayətdir,
O, bəşəri cinayətdir.

Azərbaycanın qədim yaşayış məskənlərindən biri olan Xocalı şəhərinin erməni hərbi birləşmələri tərəfindən iğşalından 30 il ötür. Xocalıda törədilmiş soyqırım miqyasına və qeyri-insani cəza üsullarına görə tarixə ən dəhşətli cinayət aktı kimi daxil olmuşdur. XX əsrin sonunda dünyanın gözü qarşısında baş vermis belə kütləvi qırğın hadisəsi öz qəddarlığına görə təkcə Azərbaycan xalqına qarşı deyil, bötövlükdə bəşəriyyətə, insanlığa qarşı törədilmiş cinayət idi.

Xocalı soyqırımının 30 illiyi münasibətilə təşkil olunan tədbirlərdən biri də görüşdür. Belə tədbiri təşkil etmək nə qədər çətin və məsuliyyətli olsa da, bir o qədər şərəflidir. Çünki, faciəni öz gözləri ilə görən, o məsum gecəni yaşayan sakinlərlə görüş bunu deməyə əsas verir.

Bəli, "Milli vətənpərvərlik və qürur hissi" adlı görüşə Vətən müharibəsi iştirakçılarını, qaziləri, tarixçiləri, ədəbiyyat müəllimlərini, şair və yazıçıları, orta məktəb şagirdlərini, universitet tələbələrini və əlbətdə ki, Xocalı faciəsinin canlı şahidlərini, Xocalıda doğulub, boya-başa çatan, uşaqlığı Xocalıda keçən, Xocalı yanğısı isə yazıb yaradan şair Ələmdar Quluzadəni də dəvət etmək olar.

Tədbirə dəvət alan qonaqların çıxış və məruzələri dinlənildikdən sonar, söz Xocalı sakinlərinə verilir.

"Gecə saat 11 idi. Evimizdə idik. Atam anamı və bizi-13 yaşlı bacım Rəvanəni, 12 yaşlı bacım Nuranəni, 6 yaşlı qardaşım Şükürü və məni götürüb meşəyə qaçdıq. Səadət xalam və uşaqları-Nəbi, Sevinc, Roman da bizdə idi. Onlar da bizimlə meşəyə getdi. Meşədə azmışdıq. Ağdam əvəzinə Xankəndi tərəfə getmişdik. Səhərisi gün meşədə Sona xalanın, Həcər xalanın ailəsi ilə rastlaşdıq. Onlarla birgə getməyə başladıq. Yolda əmim Tahirin qılçaları tutuldu. Atam qardaşımın yanında qaldı. Biz dəstəyə qoşulub getdik. Bir az getmişdik ki, Halay dayımın

arvadı Şərqiyyə xalanın ürəyi partladı. Öldü. 12 yaşlı bacım Rəvanə ondan qorxdu. Bacımın da ürəyi partladı.
Rəvanəni də Şərqiyyə xala ilə yanaşı qoyub üstünü ağac şaxları ilə örtdülər. Anam bacımı qucaqlamışdı…Ayrılmaq istəmirdi. Yolumuza davam etdik. Anamın ayaqları tutuldu. Biz dəstədən ayrıldıq. 8 nəfər qaldıq. Xalam, uşaqları-Nəbi, Sevinc, Roman, mən, anam, bir də bacım Nuranə ilə qardaşım Şükür. Anamın ayaqlarının tutulduğu yerdə iki gün oturduq. Kibrit də yox idi ocaq qalayaq. Xalam uşaqları-Nəbi, Roman, Sevinc və qardaşım Şükür, bacım Nuranə qarın üstə yatdılar. Mən yata bilmirdim. Gözümə bir damcı yuxu gəlmirdi. Uşaqlar yatdıqları yerdə dondular…Xalam nə qədər eləyirdi onları oyada bilmirdi..Anam güclə nəfəs alırdı…Hələ sağ idi. Xalama yalvarırdı ki, Şəhlanı götür, get. Heç olmasa, siz xilas olun. Xalam razılaşmırdı. Donmuş uşaqlarını bir-bir qucağına alır, götürmək istəyir, gücü çatmırdı…Nəhayət o, başa düşdü ki, getmək lazımdır. Uşaqları, anamı dönə-dönə qucaqlayıb opdü. Mən də anamı öpürdüm…Anam heysiz arxası üstündə uzanmışdı. Gözləri iri açılmışdı…Məni qucaqlaya da bilmirdi. Həm getmək istəyirdim, həm də istəmirdim. Anama dedim getmirəm. Dedi: "Get qızım, böyük qardaşın Şakir tək qalmasın!". Hadisə vaxtı Şakir Xocalıda deyildi. Xalamla oradan uzaqlaşdıq. Tez-tez dönüb geri baxırdım. İki təpə aşdıq. Baxdıq adamlar var. Qorxduq. Kolun altında gizləndik. Milli ordunun əsgərləri idi. Kətik meşəsində Xocalı camaatını axtarır, kömək edirdilər. Bizi Abdalgülablıya gətirdilər. Oradan da Ağdama apardılar. Vaqon xəstəxanada qaldıq. Sonra Bakıya-Mərkəzi Respublika Xəstəxanasına gətirildik. Mən1-2 ay müalicə aldım. Xalamın ayaqlarını kəsdilər".
Tədbirdə iştirak edən oxucular Xocalı haqqında bayatılar söyləyirlər.

Duz basdılar yarana,

Layla, Xocalım, layla.

Düşdün gülləbarana,

Layla, Xocalım, layla

Namərdi kim çağırdı?

Göydən ölüm yağırdı.

Dilnən demək ağırdı,

Layla, Xocalım, layla.

Daş üstə daşmı qaldı,

Salamat başmı qaldı,

Gözümdə yaşmı qaldı,

Layla, Xocalım, layla.

Qaçdı Novruzun tamı,

Kimdi yandıran şamı?

Yas elədin bayramı,

Layla, Xocalım, layla

Dərdin kimi acı yox,

Ağrı var, əlacı yox.

Ağlamağa bacı yox,
Layla, Xocalım, layla.

Hisdi, pasdı, qurumdu,
Tüstü burum-burumdu.
Hər tərəf uçurumdu
Layla, Xocalım, layla.

Bu torpağın canısan,
Selə dönmüş qanısan.
Sən kimin qurbanısan?
Layla, Xocalım, layla.

Xocasan, xocan hanı?
Cavansan, qocan hanı?
Tüstülü bacan hanı?
Layla, Xocalım, layla.

Çıxmağa yol olmadı,
Qucmağa qol olmadı.
Üzməyə sal qalmadı,
Layla, Xocalım, layla.

Məndən küsdü soyadım,
Namərd olsun qoy adım.
Səni necə oyadım?
Layla, Xocalım, layla.

Kədər düşdü payına,
Səndən çətin yayına.
Hay vermədik hayına,
Layla, Xocalım, Layla.

Yara sarıyan hanı?
Haqdan yarıyan hanı?
Yurdu qoruyan hanı?
Layla, Xocalım, layla

Şuşanın ətəyi qan,
Bali qan, petəyi qan.
Düşmənin kötəyi qan,
Layla, Xocalım, layla.

İtən çənim olaydı,

Bitən dənim olaydı.

Vətən mənim olaydı,

Layla, Xocalım, layla

Yatan çətin ayıla,

Çətin adam sayıla.

Heyif Şah İsmayıla,

Layla, Xocalım, layla.

Dünya darmı görəsən?

Qulaq karmı görəsən?

Allah varmı görəsən?

Layla, Xocalım, layla.

***Tədbir şair Ələmdar Quluzadənin çıxışı ilə davam edir.***

Sırf oxumaq üçün uzaq yolları piyada qət edib, məktəbə gedən uşaqlar qışda belə üşümürdük. Qarda, boranda, yağmurda... sanki vətən torpağının istisi ilə qızınırdıq. Həqiqətən, pafossuz belədir. Yaşadığın vətən torpağı olanda torpaq səni qızdırır, sən də torpağı. Biz məktəbə məcburiyyətlə getmirdik. Kənd uşaqları ilə bir yerə yığılır, yaz-yay vaxtı böyürtkən, alça, alma-armud yeyə-yeyə məktəbə gedir, məktəbdən gəlirdik. Kənddə o illərdə saflıq var idi. Hər kəs bir-birinə kömək etmək istəyirdi. Yolboyu bir dəstə uşaq məktəbə gedib-gələndə sakinlər öz bağ-bağatından yığdıqlarından bizə verirdilər. Uşaqlarla məktəbə qədər də, məktəbdə də, məktəbdən çıxanda da bir yerdə olurduq. Darıxdırıcı günlərimiz heç olmazdı.

Böyüdüyüm Qaladərəsi kəndi dağətəyi ərazidə yerləşirdi. Qaladərəsi ilə Xocalını Badara çayı ayırırdı. Xocalı və ona bitişik kəndlər isə vadi sayılırdı. Ətrafı dağlarla əhatələnmiş düzəngah idi oralar. Harov, Şuşa, Qırxqız dağları, Bozdağ, uzaqda Murov dağı görünərdi. Harov və Bozdağın birləşdiyi hissə açıq idi və orada Əsgəran qalası var idi. Əsgərana qədər və elə Əsgərann özündə də nar, əncir, digər meyvələr yetişirdi. Sanki Əsgəran aranla, dağları ayıran bölgə idi, adı da buradan gəlirdi – "əks aran". Əsgəranla bizim kəndimizin arası 500 kilometr idi. Bizdə də oradakı naz-nemətdən yox idi. Uşaqlıq illərindən şəkillərim də azdır, Xocalıda qalıb, ora-bura köçdükcə əksəriyyəti itib-batıb.
Xocalıya sonuncu dəfə 1991-ci ildə getmişdim. Şəhər dəyişmişdi, bir az ümidli, bir az ümidsiz idi. beşmərtəbəli binalar tikilmişdi.
Xocalıda keçən uşaqlıq illərimdə yaşadıqlarımı oxuyan insanlar güləcək də, ağlayacaq da...

Biz Xocalını itirəndən sonra özümüz-özümüzü qiymətləndirib, dəyər verə bildik. Ermənilərin o zəkası yox idi ki, bizlərlə yarışa girsin. Vaxtında özümüzə dəyər versəydik, ermənini daxilimizə buraxmasaydıq, bu gün işğalla qarşılaşmazdıq. Xocalı, Qaladərəsi, Dərələyəz ərazilərində ermənilər yaşamırdı. Ən yaxın erməni kəndi ilə Xocalının arası iki kilometr idi, əhali bir-birini görməzdi. Xocalıda sırf azərbaycanlılar yaşayırdı. Sizə bir şeyi deyim, erməni kəndlisi Azərbaycan kəndlisi ilə müharibə etmirdi. Ermənilər içində fitnəkarlar var idi, sözsüz, kəndli kəndliyə elə vəhşilik edə bilməzdi. Sadəcə ermənilər torpaq istəyirdi. Erməni rəhbərliyinin məqsədi də ərazilərimizdə möhkəmlənmək idi.
Oxucular səhnəyə daxil olur. Müəllifi Ələmdar Quluzadəyə aid "Şəhid şəhər" adlı poemadan bir parçanı səsləndirirlər.
1992-ci il fevral ayının 26-na keçən gecə erməni və keçmiş Sovet İttifaqı hərbi birləşmələrinin bəşər tarixində misli görünməmiş cinayətinə, şərəfsizlərin xəyanətinə qurban gedən Xocalı Şəhidlərinə, bütün Xocalı zavallılarına, eləcə də həmin gecə 88 yaşında qətlə yetirilən atama həsr edirəm.

Müəllif

Bir almanı soymağa bıçaq gəzən deyiləm,
Almaz kimi qaya ver, dizlərimi soy deyim
Qızımın qollarına düşən hava toy deyil,
Nənəmin sümüyünə hava çal ki, toy deyim.
İstəmirəm süfrədə könül versin bal yağa,
İstəyirəm çəməndə şeh çilənsin balağa.
Dodağımı söykəyib diş göynədən bulağa
Bir yol sinə dolusu oxay deyim, oy deyim.

Bir lələk düşsə yerə durnanın sırasından,
Bir Qarabağ göyərər gözümün qarasından.
Çınqılı dolaşanda daşların arasından
Bir utancaq bənövşə boy göstərsin, boy deyim.

Cibimdə dəsmalım yox, bu yurdun ipəyindən,
Başımda çələngim yox çəmənin çiçəyindən.
Qürbətinə qarışan bu Vətənin nəyindən
Mən özüm doymuşam ki, bir sənə də doy deyim?

Səsim dalğa-dalğadı, sözüm axın-axındı,

Gözlərim qonşunuzdur, ünüm sənə yaxındı.
Ələkdə olanımdan ürəyim arxayındı,
Ürəkdə olanımdan yavaş-yavaş qoy deyim.

Dostlarım mənə baxıb, məni məndə görməyib,
Əlim çatmır özümə, illər yaman ötüşür.
Yaddaşımı hər yazan ürəyimə girməyib,
Ürəyimi oxumaq sənin boynuna düşür.

Mən susanda vulkanam, od tutanda kömürəm,
Əllərimi üşüdən səsimi üşütməyib.
Bir kabab süfrəsində sənə sağlıq demirəm,
Sənə dediklərimi kitab da eşitməyib.

Haqsız tutaşa bilməz haqqın yiyəsi ilə,
İtkimi axtarıram mənə göz didəsi kimi.
Öz sinəmi yararaq həsrət tiyəsi ilə
Söz cənginə çıxıram söz sərkərdəsi kimi.

Nə Şəhidlər günahkar, nə fevralın gecəsi,

Ağalar, gizlətməyin ciblərdə cinəyəti

Soyqırımı adlanan Xocalı faciəsi

Düşünülmüş oyunun şüurlu xəyanəti.

Tədbirdə həmçinin Ələmdar Quluzadənin "Salam Xocalı dərdim" adlı şeirini oxucular söyləyirlər.

Salam, Xocalı dərdim

Mən qoynunda doğuldum, sən içimə köçmüsən,

Nağıl dili olmasın, qıl körpüdən keçmisən,

Nəyinə güvənmişəm, nəyimə and içmisən?

Toyuna, bayramına bir vaxt salam verərdim-

Salam, Xocalı dərdim!

Qırxqız mehi mizrabın, Qarqar qopuzun idi,

Çölün də, çınqılın da şəkərin, duzun idi,

Qoynuna qısılanda qolların uzun idi.

Sənə ana deyərdim, mənə oğul deyərdin-

Salam, Xocalı dərdim!

Əlim ətəyə çatmır, əlim göylərə dəyir,

Ələyənlər ələyib əyilməzləri əyir,

Yetim uşaq görəndə yaralarım göynəyir.

Bu dərd tək mənim olsa ürəyimdə çəkərdim –

Salam, Xocalı dərdim!

Qara, qərib daşı var hər əyilən xurcunun,
İstəyi gizli deyil burnumuzun ucunun,
Sağlığım istəyir axı borclu borclunun.
Sənin dərdin olmasa bəlkə çoxdan ölərdim –
Salam, Xocalı dərdim!
Məni daştək kündələ, məni qum kimi yoğur,
Bu dünyanın havası məni dördəlli boğur,
Üzümə bahar doğmur, üzümə payız doğur.
Əlim əlinə dəysə ayağını öpərdim –
Salam, Xocalı dərdim!
Mən qanımı görmüşəm düşmənin qaşığında,
Eşqim dəli olubdur həsrət yaraşığında,
Tonqal çatacağam mən bu dərdin işığında.
Sevincim inciməsin, mən dərdimə güvəndim –
Salam, Xocalı dərdim!
Ürəyin ülkər qızı, idrakın nizəsi var,
And mənə köhnə dostdur, sözümün təzəsi var,
Sevincin sirri bəlli, dərdin möcüzəsi var;
Pencər kimi biçilib, xəncər kimi göyərdim –
Sağ ol, Xocalı dərdim!
Sağal, Xocalı dərdim!
Salam, Xocalı dərdim!

Xocalı soyqırımının 30 illiyi münasibətilə F.Köçərli adına RespuUşaq kitabxanasında keçirilən tədbirlərdən biri də kitab müzakirəsidir. Kitabxanaçı tədbirə ziyalıları, şair və yazarları bir çox qonaqları dəvət edir. Əvvəlcə Xocalı qurbanlarının, eləcə də Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş bütün şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilir. Tədbirə dəvət olunan qonaqlar Xocalı haqqında yazılan kitablarla tanış olduqdan sonra, Xocalı soyqırmının bəşər tariximizə vurduğu yaralardan söz açırlar. Tədbiri giriş sözü ilə açan kitabxananın müdriyyəti Xocalı soyqırımının dünyada tanıdılması istiqamətində görülən işlər çərçivəsində Heydər Əliyev Fondunun fəaliyyətini xüsusi qeyd edir. Çıxışda qeyd olunur ki, Fond Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, ölkəmizin üzləşdiyi təcavüzkarlıq faktının ifşası istiqamətində məqsədyönlü və ardıcıl iş aparır. Fondun dəstəyi ilə hər il müxtəlif ölkələrdə Xocalı faciəsinə həsr olunmuş konfranslar, tədbirlər keçirilir, bu istiqamətdə xüsusi təbliğat aparılır. Hazırda Xocalı soyqırımının beynəlxalq aləmdə tanınması Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirilmişdir. Heydər Əliyev Fondunun təşkilatçılığı ilə “Xocalıya Ədalət” kampaniyası çərçivəsində görülən işlər nəticəsində Xocalı soyqırımı haqqında dünya ictimaiyyəti məlumatlandırılır və müxtəlif dövlətlər tərəfindən faciəyə beynəlxalq hüquqi qiymət verilir. Tədbir Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın sitatı ilə davam edir. “Xocalı soyqırımı həm də öz həyatı naminə olsa belə qonşusunu, yaxınını, dostunu qırğınlardan müdafiə edən insanların mərdliyinin nümunəsidir. Hazırda biz bütün əzmimizi, dəyanətimizi cinayətkarların məsuliyyətə cəlb olunmasına, belə kütləvi vəhşilik və soyqırımın bir daha təkrarlanmaması istiqamətində səfərbər etməliyik.”




Kitabxanaçı “Xocalı şikəstəsi” adlı kitabı oxuculara təqdim edir. Kitaba baxış keçiriləndən sonra kitab ətrafında müzakirələr başlayır. Qeyd olunur ki, Xocalı dəhşətlərindən zaman baxımından uzaqlaşdıqca faciənin vurduğu yaralar sağalmaq əvəzinə, daha da dərinləşir, qövr edir, düşmənin amansızlığı üzə çıxır, xüsusən də o müdhiş gecə bədii əsərlərdə təcəssüm etdirildikcə, o qanlı-qadalı günlərdən söz açan kitabların sayı zaman keçdikcə artır, rəssam və heykəltəraşların əsərləri də faciənin görünməyən tərəflərinə işıq salır. Elə bu baxımdan nəşr olunan “Xocalı şikəstəsi” romanı da faciənin bədii ifadəsi hesab edilir. Azərbaycan və Anadolu türkcəsində çapdan buraxılan “Xocalı şikəstəsi” romanının redaktoru, Əməkdar mədəniyyət işçisi, şair Vaqif Bəhmənlidir. Kitabın müəllifi ötən əsrin 80-90-cı illərində mətbuatda publisistik yazıları, kiçik həcmli hekayələri ilə yadda qalan Ulduz Qasımdır. Taleyin hökmü ilə Moskvaya köçən Ulduz Qasım “Aradan ötən 30 il müddətində o, nə Azərbaycanı, nə gəncliyin və tələbəliyin doğma yuvası Bakını, nə də dünyaya göz açdığı Cəbrayıl rayonunu bir an belə unutmayıb. “Mən aşiqəm Qarabağda”, “Tələbə gündəliyi”, “Açılmayan sirlər”in müəllifi olan Ulduz xanımın “Qürbət Zöhrəsi” kitabı isə İstanbulda türk dilində çapdan çıxıb. Müəllif qürbət ellərdə yaşamasına baxmayaraq, əsərlərində ilk növbədə göstərir ki, o, təbiətindəki yenilməz milli qürur hissini, yurda, ana dilinə, valideynlərinə, adət-ənənələrə, İslam inancına bağlılığını qoruyub saxlayıb. Elə bu səbəbdən də “Xocalı şikəstəsi” kimi romanı da yaza bilib”.

Əziz oxucular, "Xocalı şikəstəsi" faciəni və hadisələrin sonrakı inkişafını ümumiləşmiş şəkildə, bədii obrazlar vasitəsilə bir ailənin timsalında dolğunluqla əks etdirən əsər kimi maraqlıdır. Xocalı haqqında bədii keyfiyyətindən asılı olmayaraq, bütün yazılanlar tarixdir. Əsər türk dilinə İmdad Avşar tərəfindən çevrilib. Belə əsərlərin, tarixi hadisələrin gələcək nəslə, eləcə də dünyaya çatdırılmasında ədəbiyyatın və sənətin rolu böyükdür. Bu baxımdan da belə əsərlərin , həmçinin "Xocalı şikəstəsi"nin müxtəlif dillərə tərcümə olunması vacib və labüddür. Tədbirdə iştirak edən qonaqların çıxış və məruzələrindən belə aydın olur ki, bütün azərbaycanlılar Xocalı dərdinin başına toplaşıb, çünki "Xocalı şikəstəsi" yurd həsrətli insanların romanıdır. Əsər haqqında fikirlərini bölüşən şair və yazarlar, tarixçilər, ədəbiyyat müəllimləri gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi, tariximizin təbliği üçün belə əsərlərin əhəmiyyətli olduğu bir daha vurğuladılar.Səriyyə Müslümqızı çağdaş ədəbiyyatımızın tanınmış simalarından biridir.

Xocalı sakini və şairə Səriyyə Müslümqızının kitab və məqalələri əsasən Dağlıq Qarabağ, Ermənilərin Qarabağda törətdikləri vəhşiliklərə və Xocalı soyqırımına həsr edilmişdir. Onun Xocalı soyqırımından bəhs edən ilk kitabı "Qan üstünə qan yağırdı" adı altında 1992- ci ildə nəşr olunmuşdur. Səriyyə Müslümqızı "Dünya susmasın gərək" kitabının təqdimatının kitabxanada keçirilməsi də məqsədəuyğundur.

https://drive.google.com/file/d/1AjUIhfb6LJgHOtulo_i495blWkZw_e-0/view
https://drive.google.com/file/d/1O655rOOq9nMA94G9t2F6Bo4A0b92l79c/view





































Sərgiyə müxtəlif başlıqlarlar verilə bilər: “Talesiz şəhərin talesiz
Yuxarıda qeyd etdiyimiz kimi, Xocalı faciəsinin 30-cu ildönümü ərzində bir çox kitablar, poemalar, romanlar nəşr olunmuşdir ki, bunlardan biri də

Səriyyə Müslümqızının Xocalı uşaqları - Qan içində qar çiçəyi adlı kitabıdır. Kitab Yazıçı nəşriyyatı tərəfindən 2013-ildə nəşr olunmuşdur. Kitab müzakirəsinin sonunda "Xocalı – zülmət bir gecə" filminə baxış da keçirilir. Erməni Təcavüzünün Tanıdılması İctimai Birliyinin sədri, publisist Səriyyə Müslümqızının layihəsi olan film Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə hazırlanıb. Filmdə Xocalı soyqırımında ermənilərin girovluğunda olan soydaşlarımızın ağlasığmaz işgəncələrə məruz qaldığı onların özü tərəfindən nəql edilir.

**Tarix heç nəyi unutmur**

Xocalı soyqırımından bəhs edən abidələr

2011-ci ildə Ana heykəlinin postamenti 3 metr qaldırılıb və qara qranitdən yenidən qurulub.2011-ci ildə Ana heykəlinin postamenti 3 metr qaldırılıb və qara qranitdən yenidən qurulub.



Meksikada Xocalı soyqırımına aid ilk abidədir.






Abidə Tlakskoake–Xocalı meydanında yerləşir.

Almaniyada Xocalı soyqırımına aid ilk abidədir.





Türkiyədə Xocalı soyqırımına aid ilk abidədir. Abidə Xocalı Soyqrımı Xatirə Parkında yerləşir. Parkda Xocalı Muzeyi də var.

İzmitin Yenişəhər məhəlləsində qoyulmuş abidənin ümumi hündürlüyü 2,5 metr təşkil edir. Şəhidlərin ölməzliyini bildirən səmaya doğru ucalmış sütunlardan ibarət abidənin üzərində Xocalı soyqırımı haqqında qısa məlumat yerləşdirilib, Azərbaycan və Türkiyə dostluğunu tərənnüm edən simvollar əks olunub. Bundan başqa, abidənin kənarlarındakı lövhələrdə Xocalıda qətlə yetirilmiş 613 nəfərin adları həkk olunub. Xocalı soyqırımı qurbanlarının xatirəsinə ucaldılan abidə İzmirin Bornovo Bələdiyyəsinin maliyyə dəstəyi və tanınmış QHT fəalı Mülazim Kardelen Paşanın köməkliyi ilə hazırlanıb.

Əsrin faciəsi-xocalı soyqırımının 30 illiyi ilə bağlı keçirilən tədbirlərdən biri də ədəbi-bədii kompazisiyadır. Ədəbi-bədii kompazisiya Azərbaycan Respublikasının Dövlət Himni ilə başlayır. Əvvəlcə Xocalı soyqırımı ilə bağlı slayd iştirakçılara təqdim olunur.

Aparıcılar səhnəyə daxil olur:

I Aparıcı: Azərbaycan xalqının tarixinə qanlı sətirlərlə həkk olunmuş hadisələrdən biri  Xocalı faciəsidir. Bəşəriyyət tarixində ən qanlı cinayətlərdən biri kimi yaddaşlarda silinməz izlər salmış Xocalı faciəsini damarlarında azərbaycanlı qanı axan hər bir Vətən övladı heç vaxt unutmayacaqdır. Xocalı faciəsi bizim qan yaddaşımızdır.  Xalqımızın tarixində bu cür  qanlı hadisələr, məhrumiyyətlər çox olmuşdur. Amma Xocalı müsibəti onların içərisində xüsusi yeri tutur.

Oxucular səhnəyə daxil olur xalq şair Zəlimxan Yaqubun “Layla, Xocalım, layla  şeirini səslədirirlər.

Yara sarıyan hanı?
Haqdan yarıyan hanı?
Yurdu qoruyan hanı?
Layla, Xocalım, layla.
***
Şuşanın ətəyi qan,
Bali qan, pətəyi qan.
Düşmənin kötəyi qan,
Layla, Xocalım, layla.
***
İtən çənim olaydı,
Bitən dənim olaydı.
Vətən mənim olaydı,
Layla, Xocalım, layla.
***
Yatan çətin ayıla,
Çətin adam sayıla.
Heyif Şah İsmayıla,
Layla, Xocalım, layla.
***

Dünya darmı görəsən?
Qulaq karmı görəsən?

Allah varmı görəsən?

Layla, Xocalım, layla.

II Aparıcı: Xocalı soyqırımı XX əsrin ən amansız və qəddar zorakılıq aktlarından biridir.

XX əsrin sonunda törədilmiş bu faciə təkcə Azərbaycan xalqına qarşı deyil, eyni zamanda, bütün insanlığa qarşı yönəlmiş ən ağır cinayətlərdən hesab olunur. Xocalı soyqırımı Xatın, Xirosima, Naqasaqki və Sonqmi kimi dəhşətli faciələrlə bir sırada dayanır.

Ötən 30 il ərzində Xocalı soyqırımı haqqında çoxsaylı materiallar, kitablar, elmi işlər, analitik şərhlər yazılıb, filmlər lentə alınıb, həmin kənddən sağ çıxa bilmiş nadir insanlardan müsahibələr alınıb; bu insanlar 1992-ci il fevralın 26-na keçən gecənin tükürpədici hadisələri haqqında danışıb...

200 il ərzində Azərbaycan xalqı mütəmadi olaraq erməni şovinistlərinin etnik təmizləmə və soyqırımı siyasətinə məruz qalıb. Azərbaycanlılar öz tarixi torpaqlarından qovulub, qaçqın və məcburi köçkün düşüb, bunlar ermənilər tərəfindən törədilən kütləvi qətllərlə müşayiət olunub.

Azərbaycanlıların öz tarixi torpaqlarından qovulması sovet dönəmində də davam edib. 1948-1953-cü illərdə Ermənistandan 150 min azərbaycanlı deportasiya edilərək, Kür-Araz ovalığına yerləşdirilib. 1988-ci ildə 250 min azərbaycanlı öz tarixi torpaqlarından qovulub və beləcə, Ermənistan mono-etnik dövlətə çevrilib. 1988-ci ildən etibarən Dağlıq Qarabağ ətrafında yaşanan hadisələr, erməni ideoloqların "dənizdən dənizə qədər Ermənistan" kimi axmaq ideyanı gerçəkləşdirmək arzusu, kəndlərin, şəhərlərin dağıdılmasına, on minlərlə günahsız insanın ölümünə, yüz minlərlə azərbaycanlının öz tarixi torpaqlarından didərgin düşməsinə yol açıb. 26 fevral 1992-ci ildə erməni hərbi birləşmələri yeddi min nəfər əhalisi olan Xocalı şəhərində soyqırımı törədib. Hərbi birləşmələr şəhərə hücum edən zaman şəhərdə cəmi üç minə yaxın insan olub.

Şəhərin dörd aydan çox blokadada olması əhalinin böyük hissəsinin şəhəri tərk etməsinə səbəb olub.

Xocalı faciəsi zamanı 613 nəfər qətlə yetirilib, minə yaxın dinc sakin aldıqları güllə yaralarından əlil olub. 106 qadın, 63 azyaşlı uşaq, 70 qoca öldürülüb, səkkiz ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini itirib, 130 uşaq valideynlərindən birini itirib. Faciə günündə 1275 dinc sakin əsir götürülüb, onlardan 150-nin aqibəti barədə indiyə kimi heç bir məlumat yoxdur.

II aparıcı: Artıq ölkəmizdə Xocalı soyqırımı hadisəsinin bütün dünyada tanınması istiqamətində geniş ideoloji işlər görülmüşdür. Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nın və İSESKO-nun xoşməramlı səfiri, millək vəkili Mehriban xanım Əliyevanın xüsusi səyi nəticəsində Azərbaycan həqiqətləri, Xocalı faciəsi haqqında kitablar, filmlər, sərgilər dünyanın hər yerində nümayiş etdirilir.
Oxucular səhnəyə daxil olur. Şairə Nurəngiz Günün “Xocalı simfoniyası” adlı poemanı səsləndirilər.

İlahi! Sən Onlara rahatlıq ver…

İlahi! Təskin et!..

Sən onlara səma nəğmələrini göndər, təsəlli səp…

Yox, Rüzgar! O cürə əsmə sən!

Torpaqda…

Torpağın altında

Dipdiri ölülər var!

Diksinə bilər Onlar…

Alt-üst etmə torpağı, ey Rüzgar!

Onlar onsuzda yazıq!

Tələf olubdur, Onlar!

************

Hə, Rüzgar…Bəli, Rüzgar!

Orda Ölülər yatır…

Orda Ölülər dipdiri! Oyaqdır, Ölülər…

Zikkələri, səsləri oyaqdır!

Əlavə zınqırov istəmir,

onların nə təngizar qulaqları,

nə yorğun-ağrın-üzgün

bədən hücrələrindən

üzülən züzələr! Yox istəmir Onlar daha,

Dünyadan axan səsləri!!!

Onların sümük xatirəsində

Indi yalnız diri-diri

Torpağa əndərilmiş Böyük Hürkü,

Şaşqın qışqırıqlarının yaddaşı yaşayır!

Bir də ki…"Lənət sənə Faşızm!"-"Lənət sənə…lənət sənə!..."-hayqırıqları yaşayır!...

****************

Hə, Rüzgar! İndi Onlar dərin uğultularda Simvolik Marsilyoza vıyıltısı oxuyur…

Sivil dünya bir şey anlasın deyə!

Xor oxuyurlar Onlar Vəhşətə!!!
Dünya bir şey eşidə bilsin deyə!

***************

Hə, Rüzgar! Eşidə bilirsənmi,
Səslərin ən mükəmməli
Əsrin simfoniyasını?-Ölülər himnini!-
Onlar yerin mantiya qatından
Məkrin Oyun işinin
Məcmusunu-məşum nəğmələrinin
Odasını oxuyur…

*************

Hə, Rüzgar! Al Onların güclü faciəsini
Qarışdır fırtılanı hirsinə, Səsləri…
Apar ötür onlara da
O tay, bu tay Okeanı zəbt edib oturmuş
Zorunlara! Atları Əflatun Fironlara da!

*************

Bəli, cahan!
O torpağın adl Məlul Xocalı!
Çəpəri qalın çəkilib…
Hə, Rüzgar, hərdən soruşuram Ondan
Xəyalən:

“-Xocam!...Məğlubum!...Necəsən?
Yoxsa dağ çəkdi sinənə tarivi dilənçi-
Bəd Qonşu?-
Drammatik “Yazıq Erməni” ilə
Məşhur Qırmızı Qospodin?”
O! Qospodi! Nə nazik əndişədə olmuşdur
Köhnə Sovet humanisti?
Motoatıcı daşıyan
Kütləvi qırğın maşını?
“Möhtəşəm” bir Alay!!!

*****************

Ah, məhbus düşüncə!
Necə yəni, Allah yaradanı sən,
Bir gecədə yox edəsən?!
Əhsən, ey insan, əhsən,
Sən bu antic işinlə
Xirosima dəhşəti, xatın faciəsini də
Çox-çox arxada qoydun!

*******************

Bəs əsir-yesirlər? Bir deyil, on deyil,
Minmindir, yüz mindir əsirlər!
Sarsılan, əzilən həyatlar-

yüz min, yüz min,

yüz min, yüz min…yüz mindir!

**I Aparıcı:** "Xocalı simfonyası" əsəri Xocalıda şəhid olmuş insanların xatirəsinə həsr edilən ən dəyərli, ən sanballı poeziya çələngidir. Dünyaya ucalan haqq səsidir, Xocalı soyqırımının qurbanlarına ucaldılan möhtəşəm sənət abidəsidir.

Bu kədərli duyğular silsiləsi şairənin "Xocali simfoniyası" adlı poemasındandır. Əsər, "İlahi! Sən onlara rahatlıq ver!.." nidası ilə başlayır. Tənqidçi Vaqif Yusifli çox haqlı olaraq N.Günün şeirlərini oxunmuş bir duaya bənzədir.Əsərdə güclü bir obraz diqqəti özünə cəkir. Törədilən qətliamı, yaşanan faciəni dünyaya çatdırmaq ücün haqq səsini ucaldan Qadın-Ana-Şairə obrazı. Əsərdə müəllif hər mənada rüzgardan güclüdür və onun görmədiyi, görə bilmədiyi hadisələri təhlil edir, erməni vəhşiliyini dünyaya çatdırır:

Yox, rüzgar!
O cürə əsmə sən!
Torpaqda-
Torpağın altında
Dipdiri ölülər var!
Diksinə bilər onlar-
Alt-üst etmə torpağı,
Onlar onsuz da yazıq!
Tələf olubdur, onlar!

Əsərin fərqli xüsusiyyətlərindən biri də müəllifin hadisələri torpağın üstündə deyil altında, dünyanın bu üzündə deyil o biri üzündə baş verməsini əks etdirməsidir. Torpağın altında ölə bilməyən insanlar, xüsusilə körpələr, onların torpaq altında havasız, anasız zarıltıları, inqaları, ən əsas isə əmmək istədikləri ana döşü...

Çocuqlar birtəhər ovunar
Havasız... nəşəsiz...
Torpağın altında...
...Ancaq ki, ana məməsi istəyir körpələr,
Torpağın altında!
Heç bir şey anlamır inqalar!...
İnqalar ana döşü əvəzinə
İndicə torpağı əməcəklər!..

Torpağın altında ah, nalə var. Şairə o ahın şəklini çəkmək istəyir. Belə baxış, fərqli yanaşma Azərbaycan poeziyasında tamamilə yenidir. Əslində faciələrdən, soyqrımlarından, qətliamlardan çox yazılıb. Amma faciənin, ahın, nalənin şəklini çəkmək, dipdiri ölülərin səsini eşitmək, onların həyatlarını yaşamadan torpağa gömülməsinin faciəsini duymaq və yaşamaq poeziyada yalnız Nurəngiz Günə məxsusdur.

II aparıcı: Nurəngiz xanım az işlənən, şeirə gətirilməsi çətin olan sözləri şeirin nərmə-nazik sapına düzməkdə ustadır, səliqəli və cəsarətlidir. Əgər 80-ci illər yaradıcılığında itirilmiş və itirilməkdə olan zəngin arxaizmlərdən məharətlə istifadə edirdisə, 90-cı illərdə yaratdığı bədii nümunələrdə həmin illərdə az-az izlənən, şeirdə nadir işlədilən ifadələrdən daha çox istifadə edirdi. Məsələn, şair, poemada qospodi, əndişə, moto-atıcı və s. ifadələrdən çox məharətlə istifadə edərək, şeirdə eşitməyə alışmadığımız bu ifadələrlə şeirin ahəngdarlığını heç də pozmamış, əksinə, ideyanın bədii şəklini daha da güçləndirmişdir. Nurəngiz Günün poeziyasının dili barədə Səlim Babullaoğlu məqalələrinin birində yazır: "Nurəngiz Günün lüğət ehtiyatında çoxlu itirilmiş və itirilməkdə olan arxaizmlər, keçmə sözlər var ki, bu məndə müəllifin həmin sözlərdən daha çox, o sözləri öyrəndiyi, oxuduğu, eşitdiyi itirilmiş gözəl zamana olan xiffəti kimi göründü. İnsan ömrü

yalnız keçmiş zamandadır. Bunu anlayırsa, anladığını üslub halına gətirirsə,  o daha çox insan (şair,yazıçı) olaraq qala bilir".

N.Günün "Xocalı simfonyası" - zamanın həyəcan simfoniyası, tarixin poetik abidəsidir. Erməni qəddarlığını, vəhşiliyini, qaniçənliyini, rəhmsizliyini, nanəcibliyini, hiyləgərliyini, xəyanətini, cinayətini... unutmağa qoymayan abidə!

Bəşəriyyət o zaman xoşbəxtliyə, əmin-amanlığa, sülhə, dinc yaşayışa, əsl səadətə qovuşar ki, terrorun kökünü yerli-dibli kəsə bilsin. Bunun üçün çox uzaq ölkələrdə axtarış aparmaq lazım deyildir. Terroru da, soyqırımı da, dəhşətli fəlakətləri də törədənlərdən biri, ona ilham verəni məhz Ermənistan dövlətidir, erməni siyasətidir.

Aparıcı:  44 günlük Vətən savaşında Azərbaycanın qəhrəman oğulları Xocalı canilərini məhv etməklə qətliam qurbanlarının qisasını aldılar. Ulu babalarımızın min dəfələrlə öz təsdiqini tapan bir sözü var: “Qisas qiyamətə qalmır”. Ulularımızdan miras qalan bu zərbi-məsəl özünü 44 günlük Vətən müharibəsi zamanı da təsdiqlədi, sübut etdi. Xocalı soyqırımının növbəti ildönümü ərəfəsindəyik, bu il əvvəlki illərdən fərqlidir, ona görə ki, günahsız insanlarımızı qətlə yetirən canilərin xeyli qismi ordumuz tərəfindən məhv edilib. Bu baxımdan, fikrimizcə, soyqırım qurbanlarının narahat ruhu şaddır, bu da həm onların ailə üzvləri, həm də xalqımız üçün böyük bir təsəllidir”.

**Əlavələr:**

**uşaqlar - 63 nəfər;**
**qadınlar - 106 nəfər;**
**qocalar - 70 nəfər.**

**8 ailə tamamilə məhv edilmişdir.**
**25 uşaq hər iki valideynini itirmişdir.**
**130 uşaq valideynlərindən birini itirmişdir**

**487 nəfər yaralanmışdır, onlardan:**

**uşaqlar - 76 nəfər;**

**1275 nəfər əsir götürülmüşdür.**
**150 nəfər itkin düşmüşdür.**
**Dövlətin və əhalinin əmlakına 01.04.1992-ci il tarixinə olan qiymətlərlə 5 mlrd. rubl dəyərində ziyan vurulmuşdur.**

Bu rəqəmlər Ermənistan SSR-in dəstəyi və SSRİ rəhbərliyinin səhlənkarlığı ilə 1988-ci ildə başlamış və Azərbaycan SSR-in tərkib hissəsi olan Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana birləşdirilməsi iddiasının gerçəkləşdirilməsi əsasında yaranmış Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ən dəhşətli, qanlı faciəsindən xəbər verir.

**Xocalı - əsas hədəf**

Erməni silahlı dəstələrinin Xocalıya hücümunu şəhərin coğrafi mövqeyi şərtləndirirdi. 7000 əhalisi olan Xocalı Xankəndindən 10 km cənub-şərqdə, Qarabağ dağ silsiləsində və Ağdam-Şuşa, Əskəran -Xankəndi

yollarının üstündə yerləşir. Qarabağdakı yeganə hava limanı da Xocalıdadır.

Xocalı əhalinin tarixən məskunlaşdığı yerdir və qədim tarixi adibələr indiyə qədər qalmaqdadır. Xocalının yaxınlığında bizim e.ə. XIV-VII əsrlərə aid edilən Xocalı-Gədəbəy mədəniyyətinin abidələri yerləşir. Burada son bürünc və ilkin dəmir dövrlərinə aid edilən dəfn abidələri - daş qutular, kurqanlar və nekropollar tapılmışdır. Həmçinin burada memarlıq abidələri - dairəvi qəbir (1356-1357-ci illər) və mavzoley (XIV əsr) vardır. Arxeoloji qazıntılar zamanı müxtəlif növ daş, bürünc, sümük bəzək əşyaları, gildən ev əşyaları və s. tapılmışdır. Tapılmış muncuq dənələrindən birində Assuriya şahı Adadnerarinin (bizim e.ə. 807-788-ci illər) adı yazılmışdır. Əhali əsasən üzümçülük, heyvandarlıq, arıçılıq və əkinçiliklə məşğul olmuşdur. Şəhərdə toxuculuq fabriki, 2 orta məktəb və 2 natamam orta məktəb var idi. Son illərdə baş vermiş hadisələrlə əlaqədar olaraq Fərqanədən (Özbəkistan) qaçqın düşmüş 54 məhsəti-türkü ailəsi, həmçinin Ermənistandan və Xankəndindən qovulmuş azərbaycanlıların bəziləri şəhərdə məskunlaşmışdılar. Sonralar erməni tərəfi etiraf etmişdir ki, erməni silahlı dəstələrinin ilk əsas vəzifəsi Xocalı platsdarmının məhv edilməsi, bu məntəqədən keçən Əskəran-Xankəndi yolunun boşaldılması, azərbaycanlıların nəzarətində olan hava limanının ələ keçirilməsi idi. "Xocalı platsdarmının məhv edilməsi" sözlərinə diqqət yetirin. İndi söylənilən bu ifadə ermənilər tərəfindən törədilmiş qanlı qırğının, kütləvi surətdə uşaqların, qadınların, qocaların məhv edilməsinin səbəbini aydın göstərir.

## Faciənin xronikası

Xocalı 1991-cı ilin oktyabrından blokadada idi. Oktyabrın 30-da avtomobil əlaqəsi kəsilmiş və yeganə nəqliyyat vasitəsi vertolyot qalmışdı. Xocalıya sonuncu vertolyot 1992-ci il yanvarın 28-də gəlmişdi. Şuşa şəhərinin səmasında mülki vertolyotun vurulması və nəticədə 40 nəfərin həlakından sonra isə bu əlaqə də kəsilmişdi. Yanvarın 2-dən şəhərə elektrik verilmirdi. Şəhər ancaq əhalinin qəhrəmanlığı və müdafiəçilərin cəsurluğu sayəsində yaşayır və müdafiə olunurdu. Şəhərin müdafiəsi əsasən atıcı silahlarla silahlanmış yerli özünümüdafiə dəstəsi, milis və Milli Ordunun döyüşçülərindən təşkil olunmuşdu. Fevralın ikinci yarısından başlayaraq Xocalı erməni silahlı dəstələrinin mühasirəsinə alınmışdı və hər gün toplardan, ağır texnikadan atəşlərə, erməni dəstələrinin həmlələrinə məruz qalırdı. Xocalıya hücuma hazırlıq fevralın 25-də axşam 366-cı alayın hərbi texnikasının döyüş mövqelərinə çıxması ilə başlanılmışdı. Şəhərə hücum toplardan, tanklardan, "Alazan" tipli zenit toplardan 2 saatlıq atəşdən sonra başlandı. Xocalıya üç istiqamətdən hücum aparıldığından əhali Əskəran istiqamətində qaçmağa məcbur olmuşdu. Tezliklə aydın olmuşdur ki, bu, məkrli hiylə imiş. Naxçevanik kəndi yaxınlığında əhalinin qarşısı erməni silahlı dəstələri tərəfindən kəsilmiş və onlar gülləborana tutulmuşlar. Qarlı aşırımlarda və meşələrdə zəifləmiş, taqətdən düşmüş insanların çox hissəsi məhz Əskəran-Naxçevanik düzündə erməni silahlı dəstələri tərəfindən xüsusi qəddarlıqla məhv edilmişdir. Bu hadisələr regiona İran İslam Respublikasının xarici işlər naziri Əli Əkbər Vilayətinin vasitəçilik missiyası ilə səfəri günlərinə təsadüf etmişdir. O, fevralın 25-də Azərbaycanın hakimiyyət rəhbərləri ilə görüşmüş və fevralın 27-də Qarabağa, sonra isə Ermənistana səfər planlaşdırırdı. Bununla əlaqədar olaraq tərəflərin razılığı ilə fevralın 27-dən martın 1-dək üçgünlük atəşkəs

elan edilmişdi. Ermənilər ona məhəl qoymadılar və vədlərinə xilaf çıxdılar. Oxşar vəziyyət fevralın 12-də Avropada Təhlükəsizlik və Əməkdaşlıq Şurasının missiyasının vəziyyətlə tanışlıq və münaqişənin tənzimlənməsi məsələlərinin təhlili məqsədilə Qarabağa gəldiyi zaman da baş vermişdi. Missiya sonra Yerevana və Bakıya səfər etməli idi. Məhz fevralın 12-də erməni silahlı dəstələri tərəfindən Şuşanın Malıbəyli və Quşçular kəndləri qarət edilmiş və yandırılmışdır, təkcə Malıbəylidə 50 nəfər öldürülmüş, yaralanmış və əsir götürülmüşdür. Həmin günlərdə Azərbaycan qüvvələri Xocalı sakinlərinin köməyinə çata bilmədi, hətta meyitlərin götürülməsi belə mümkün olmadı. Bu zaman isə ermənilər vertolyotlarla, ağ geyimli xüsusi qruplarla meşələrdə gizlənmiş insanların axtarışını aparır, aşkar edilənləri əsir götürür, işgəncələrə məruz qoyurdular. Fevralın 28-də tərkibində yerli jurnalistlər də olan qrup 2 vertolyotla azərbaycanlıların həlak olduqları yerə çata bildilər. Gördükləri mənzərə hamını dəhşətə gətirdi - düzənlik cəsədlərlə dolu idi. İkinci vertolyotun havadan mühafizəsinə baxmayaraq, ermənilərin güclü atəşi altında ancaq 4 meyiti götürmək mümkün oldu. Martın 1-də yerli və xarici jurnalistlərin iştirakı ilə hadisə yerində daha da dəhşətli vəziyyət müşahidə olunmuşdur. Meyitlərin skalplarının götürülməsi, qulaqlarının və digər orqanlarının kəsilməsi, gözlərinin çıxardılması, ətrafların kəsilməsi, çoxsaylı bıçaq və güllə yaraları, ağır texnika ilə əzilmələr, yandırılma halları aşkar edilmişdir. Bu vəhşiliklər haqqında xarici mətbuatın yazdıqlarından:

**Krua l'Eveneman jurnalı** (Paris), 25 fevral 1992-ci il: Ermənilər Xocalıya hücum etmişlər. Bütün dünya eybəcər hala salınmış meyitlərin şahidi oldu. Azərbaycanlılar minlərlə ölənlər barədə xəbər verirlər.

**Sandi Tayms qəzeti** (London), 1 mart 1992-ci il: Erməni əsgərləri minlərlə ailəni məhv etmişlər.

**Faynenşl Tayms qəzeti** (London), 9 mart 1992-ci il: Ermənilər Ağdama tərəf gedən dəstəni güllələmişlər. Azərbaycanlılar 1200-ə qədər cəsəd saymışlar.

Livanlı kinooperator təsdiq etmişdir ki, onun ölkəsinin varlı daşnak icması Qarabağa silah və adam göndərir.

**Tayms qəzeti** (London), 4 mart 1992-ci il: Çoxları eybəcər hala salınmışdır, körpə qızın ancaq başı qalmışdır.

**İzvestiya** (Moskva), 4 mart 1992-ci il: Videokamera qulaqları kəsilmiş uşaqları göstərdi. Bir qadının sifətinin yarısı kəsilmişdir. Kişilərin skalpları götürülmüşdür.

**Faynenşl Tayms qəzeti** (London), 14 mart 1992-ci il: General Polyakov bildirmişdir ki, 366-cı alayın 103 nəfər erməni hərbiçisi Dağlıq Qarabağda qalmışdır.

**Le Mond qəzeti** (Paris), 14 mart 1992-ci il: Ağdamda olan xarici jurnalistlər Xocalıda öldürülmüş qadın və uşaqlar arasında skalpları götürülmüş, dırnaqları çıxardılmış 3 nəfəri görmüşlər. Bu azərbaycanlıların təbliğatı deyil, bu reallıqdır.

**İzvestiya** (Moskva), 13 mart 1992-ci il: Mayor Leonid Kravets:Mən şəxsən təpədə yüzə yaxın meyit gördüm. Bir oğlanın başı yox idi. Hər tərəfdə xüsusi qəddarlıqla öldürülmüş qadın, uşaq, qocalar görünürdü.

**Valer aktuel jurnalı** (Paris), 14 mart 1992-ci il: Bu "muxtar regionda" erməni silahlı dəstələri Yaxın Şərqdən çıxmışlarla birlikdə müasir texnikaya, o cümlədən vertolyotlara malikdirlər. ASALA-nın Suriya və Livanda hərbi düşərgələri və silah anbarları vardır. Ermənilər yüzdən artıq müsəlman kəndlərində qırğınlar törədərək Qarabağdakı azərbaycanlıları məhv etmişlər.

R. Patrik, İngiltərənin "Fant men nyus" teleşirkətinin jurnalisti (hadisə yerində olmuşdur):Xocalıdakı vəhşiliklərə dünya ictimaiyyətinin gözündə heç nə ilə haqq qazandırmaq olmaz. "Memorial" hüquq-müdafiə mərkəzinin hesabatından:

**Xocalı**

1991-ci ilin payızından erməni silahlı dəstələri tərəfindən əsasən blokadaya alınmışdı, Dağlıq Qarabağdan daxili qoşunlar çıxarılandan sonra isə tam blokadada idi. 1992-ci ilin yanvarından Xocalıya elektrik enerjisi verilmirdi. Əhalinin bir hissəsi şəhəri tərk etmişdi, ancaq Xocalı İcra hakimiyyətinin başçısı E.Məmmədovun təkidli müraciətlərinə baxmayaraq dinc əhalinin tam evakuasiyası olunmamışdı.

1992-ci il fevralın 25-də Xocalıya erməni silahlı dəstələrinin hücumu başlandı.

**Hücumun iştirakçıları**

Hücumda zirehli texnikanın- zirehli maşınların, piyadaların döyüş maşınlarının və tankların dəstəyi ilə Artsaxın Milli Azadlıq Ordusunun (AMAO) hissələri iştirak edirdi.

**Sovet Ordusunun 366-cı alayının hərbiçilərinin iştirakı**

Təqribən bütün Xocalı qaçqınlarının söylədiklərinə görə, şəhərə hücumda 366-cı alayının hərbiçiləri iştirak edirdi, hətta onlardan bəziləri şəhərə də girmişdilər.

**Hücumun gedişatı**

Xocalı fevralın 25-də saat 23-dən toplardan atəşə tutulmağa başlanmışdır. İlk növbədə yaşayış massivində yerləşən kazarma və müdafiə nöqtələri dağıdılmışdı. Piyada hissələr şəhərə fevralın 26-ı saat 1-4 arası girmişdir.

Sonuncu müdafiə nöqtəsi saat 7-də məhv edilmişdir.

Şəhərin gülləboranı nəticəsində dinc əhalinin müəyyənləşdirilməmiş miqdarda əmlakı dağılmışdır.

**Əhalinin çıxması üçün azad dəhliz**

Ağdam və Bakıda Memorialın müşahidəçiləri Xocalıya hücum zamanı şəhəri tərk etmiş 60 nəfərlə sorğu-sual etmişlər. Soruşulanlardan ancaq biri söyləmişdir ki, dəhliz barədə məlumatı olmuşdur.

Azad dəhlizlə qaçan əhali Azərbaycanın Ağdam rayonuna qovuşan ərazidə gülləyə tutulmuşdur və nəticədə çoxlu sayda insan həlak olmuşdur.

**Şəhərdə qalmış əhalinin müqəddəratı**

Şəhər erməni silahlı dəstələri tərəfindən zəbt ediləndə orada 300 dinc əhali, o cümlədən 86 məshəti-türkü qalmışdı.

Hər iki tərəfdən alınmış məlumata əsasən, 1992-ci il martın 3-nə Azərbaycan tərəfinə 700-dən artıq şəhərdə və Ağdam yolunda əsir götürülmüş Xocalı sakini təhvil verilmişdir. Onların əsas hissəsini qadınlar və uşaqlar təşkil edirdi.

Əsir düşmüş əhali və Xocalı müdafiəçilərinin saxlanılma şəraiti

Müvəqqəti saxlanılma təcridxanasının rəisi mayor Xaçaturyan hətta bir neçə dəqiqəlik təklikdə danışmağa icazə vermədi. Təsadüfən bir dəfə belə söhbət etmək mümkün oldu.

**Xocalı sakinlərinin əmlakı**

Şəhərdən qaçan Xocalı sakinləri hətta zəruri əşyaları belə götürə bilməmişdilər. Erməni silahlı qüvvələrinin Xocalıdan çıxardıqları sakinlər də əmlaklarından heç nə götürməmişdilər.

Memorialın müşahidəçiləri şəhərdə azğın, heç nə ilə qarşısı alınmayan soyğunçuluğun şahidi olmuşlar. Şəhərdə qalan əmlak Stepanakert və yaxınlıqdakı yaşayış məntəqələrinin əhalisi tərəfindən daşınırdı. Çox evlərin darvazalarında onların yeni sahiblərinin adları yazılmışdır.

**Alınmış məlumatların qiymətləndirilməsi**

Xocalının zəbt olunması üzrə həyata keçirilmiş hərbi əməliyyat zamanı şəhərin dinc əhalisinə qarçı kütləvi zorakılıq törədilmişdir.

Azad dəhliz barədə məlumat Xocalının əhalisinin çoxuna çatdırılmamışdır.

Azad dəhliz və onun yaxınlığındakı ərazidə dinc əhalinin kütləvi qırğınına heç bir cəhdlə haqq qazandırmaq olmaz.

Xocalıya hücumda Müstəqil Dövlətlər Birliyinin ordusuna məxsus olan 366-cı motoatıcı alayın hərbiçiləri iştirak etmişdir.

Memorial Hüquq-müdafiə Mərkəzi təsdiq edir ki, Xocalıya hücum zamanı erməni silahlı dəstələrinin dinc əhaliyə qarşı hərəkətləri Cenevrə konvensiyasına, həmçinin Ümumdünya İnsan Haqları Bəyannaməsinin

(BMT-nin Baş Assambleyası 10.12.1948-ci ildə qəbul etmişdir) aşağıdakı maddələrinə kobud qaydada ziddir:

**Maddə 2.** Hər bir şəxs dilindən, dinindən, milliyyətindən və digər səbəbdən, fərq qoyulmadan bu Bəyannamədə təsbit olunmuş bütün hüquq və azadlıqlara malik olmalıdır.

**Maddə 3.** Hər kəsin yaşamaq, azadlıq və şəxsi toxunulmazlıq hüququ vardır.

**Maddə 5.** İnsan ləyaqətini alçaldan, insaniyyətlikdən kənar və qəddar hərəkətlər qadağandır.

**Maddə 9.** Özbaşına həbslər, saxlanılmalar və ya qovulmalar qadağandır.

**Maddə 17.** Hər bir insanın əmlaka malik olma hüququ vardır və insanın əmlakdan özbaşına məhrum edilməsi qadağandır.

Silahlı dəstələrin hərəkətləri Fövqəladə vəziyyətlərdə və hərbi münaqişələr zamanı qadınların və uşaqların müdafiəsi Bəyannaməsinə (BMT-nin Baş Assambleyası 14.12.19748-cü ildə qəbul etmişdir) kobud qaydada ziddir.

**366-cı alay**

Xocalı soyqırımında 366-cı alayın rolunu xüsusi qeyd etmək lazımdır.

Bu alay Şuşa və Xocalının, Azərbaycanın kəndlərinin atəşə tutulmasında dəfələrlə iştirak etmişdir. Alaydan qaçmış hərbiçilərin ifadələri bu faktları sübut edir və hərbi hissənin şəxsi heyətinin mənəvi durumu və münasibətləri haqqında təsəvvür yaradır. 366-cı alayın təcili surətdə Xankəndidən çıxarılması da bu alayın Xocalı hadisələrində iştirakını

sübut edir. Hərbi hissənin komanda heyətinin mənəviyyatsızlığı o həddə çatmışdır ki, guya əhalinin müqaviməti ilə rastlaşdıqlarına görə alayın sərbəst çıxarılmasını təmin edə bilmədilər. Bu məqsədlə Gəncədə yerləşən desant diviziyasının qüvvələri cəlb edilməli oldu. Ancaq bu qüvvələr gələnədək alayın 103 nəfəri, əsasən ermənilərdən ibarət olan və qırğında iştirak etmiş hərbiçı əmrə tabe olmaqdan boyun qaçıraraq Qarabağda qaldılar. Alayın komandanlığının cinayət sövdələşməsi və alayın çıxarılmasına məsul olan digər şəxslərin məsuliyyətsizliyi nəticəsində hərbi texnikanın bir hissəsi, o cümlədən zirehli texnika ermənilərə təhvil verildi. Beləliklə də gələcəkdə Azərbaycana qarşı cinayətlərin törədilməsi, separatçılıq hərəkətlərinin davam etdirilməsinə rəvac verildi. Bunun özü də Xocalı soyqırımında birbaşa iştirakın sübutudur! Erməni silahlı dəstələri və 366-cı motoatıcı alayın şəxsi heyəti Azərbaycanın yaşayış məntəqələrinin atəşə tutulmasında iştirak etmiş üzvləri Xocalı şəhərində törədilmiş vandalizmin əsas cinayətkarlarıdır. Xocalı soyqırımında iştirak etmiş ermənilərin və onların köməkçilərinin hərəkətləri insan haqlarının kobud pozulması, beynəlxalq hüquqi aktlara - Cenevrə konvensiyası, Ümumdünya İnsan Haqları Bəyannaməsi, Vətəndaş və siyasi hüquqlar barədə Beynəlxaq Saziş, Fövqəladə vəziyyətlərdə və hərbi münaqişələr zamanı qadınların və uşaqların müdafiəsi Bəyannaməsinə həyasızcasına məhəl qoyulmamasıdır. Bu faciədə həmçinin, Azərbaycanın o vaxtkı siyasi və hərbi rəhbərliyi də günahkardır. Ayaz Mütəllibov Azərbaycanın Prezidenti və Ali Baş Komandanı olaraq ölkənin ərazi bütövlüyünün, təhlükəsizliyininn və onun vətəndaşlarının mühafizəsinin təminatçısı kimi Qarabağda,o cümlədən Xocalıda baş verən hadisələrin qarşısının alınması üçün zəruri olan tədbirləri görməmişdir. Ölkənin ali vəzifəli şəxsi kimi Konstitusiya qaydasının, ərazi bütövlüyünün, insanların hüquq və azadlıqlarının müdafiəsini təmin edə bilmədi. Onlar hətta qırğın baş verəndən sonra,

xalqın qəzəbindən qorxaraq acı həqiqəti bilməkdən çəkindilər və erməni silahlı cinayətkarlarının törətdikləri azğınlıqların həqiqi miqyası barədə məlumatlar gizlədildi.

## Tarix unutmayacaqdır

Azərbaycan Milli Məclisi (Parlamenti) hər il fevralın 26-nı "Xocalı soyqırımı günü" elan etmişdir. Hər il fevralın 26-da saat 17.00-da Azərbaycan xalqı Xocalı soyqırımının qurbanlarının xatirəsini yad edir. Doğma yurdlarından didərgin düşmüş və Azərbaycanın 48 rayonuna səpələnmiş Xocalı sakinləri Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli, Ermənistanın Azərbaycana qarşı təcavüzünün dəf edilməsi, ölkənin ərazi bütövlüyünün bərpa edilməsi ümidi ilə yaşayırlar. Onlar dünya xalqlarına, dövlətlərinə, beynəlxalq təşkilatlara haqq-ədaləti və həqiqəti müdafiə etmək, Xocalıda törədilmiş terrorizm, etnik təmizləmə faktlarını pisləmək barədə müraciətlər edirlər. Xocalı soyqırımının günahkarları, təşkilatçıları və icraçıları layiqli cəzalarına çatmalıdırlar. Cinayət cəzasız qala bilməz. Təəssüf ki, XX əsrdə soyqırım və etnik təmizləmə hadisələri baş vermiş tarixi səhifələr olmuşdur. Xocalı faciəsi onların sırasında ən dəhşətlilərinə aiddir. Hal-hazırda bu hadisələrdə hər hansı şəkildə iştirakı olmuş şəxslər hələlik öz vicdanları qarşısında cavabdehdirlər, ancaq vaxt gələcək və onlar tarixin məhkəməsi qarşısında cavab verməli olacaqlar.

## Ədəbiyyat siyahısı

**Bayandur İ.** Qana bələnmiş tarix. - Bakı : Qanun, 2007. - 358 s.

**Bayramova F.** Xocalı harayı. - [S. l. : s. n.], 2018. - 16 s.

**Biz o yurdlara** qayıdacağıq : Foto kitab. - Bakı : "QHT nəşriyyatı", 2013. - 152 s. : foto. - Bu kitab Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökümət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə yardımı ilə "Ermənistandan və Qarabağdan köçkün düşən insanlardan o yerlərin tarixinə aid foto və sənədlərin toplanılması, nəşri" layihəsi əsasında çap edilib.

**Biz öz yurdumuza** qayıdacağıq. - Bakı : Azərbaycan Ensiklopediyası NPB, 1997. - 520 s. : foto.

**Bizi əsirlikdən qurtarın** = Release us from captivity. - Bakı : Qismət, 2006. - 680 s. : foto, xəritə. - Azərbaycan və ingilis dillərində.

**Çəmənli M.** Fred Asif : sənədli roman. - Bakı : Təhsil, 2010. - 214 s. : foto rəngli, foto.

**Elatlı E.** Cəhənnəmdən gələn səs : roman. - Bakı : MBM, 2009. - 368 s. - (Kriminal).

**Erməni terroru**. - Bakı : Vətən, 2005. - 168 s. : foto, xəritə, il.

- Azərbaycan, rus və ingilis dillərində.

**Əliyev Q.** Müasir Azərbaycanın banisi, xilaskarı, qurucusu. - Bakı : Şəms, 2006. - 520 s. : rəngli.foto, portr.

**Gün N.** Xocalı simfoniyası = Khodjali symphony : rekviyem. - Bakı : Vektor, 2006. - 84 s. : foto, il.

**Həsənli M.** Qarabağın qara bəxti. - Bakı : Adiloğlu, 2011.

**Həsənov Ə.** Xocalı soyqrımı : səbəbləri, nəticələri və beynəlxalq aləmdə tanınması. - Bakı : Zərdabi LTD MMC, 2017. - 464 s. : foto. - Azərbaycan, türk, rus, ingilis, fransız, alman, ərəb və Çin dillərində.

**Xəlilqızı Ə.** Güllələnmiş uşaqlıq = Растрелянное детство = Shot through chilhood. - Bakı : Çaşıoğlu, 2012. - 295 s. : foto. - Azərbaycan, rus və ingilis dillərində.

**Xəlilqızı Ə.** Güllələnmiş uşaqlıq = Растрелянное детство = Shot Through Childhood. - Bakı : İnnovativ Tədris Mənbələri (İTM) QSC, 2012. - 1 el. opt. disk (CD-ROM) : ağ-qara : foto ; 12 sm. - (Nizami layihəsi). - (qutuda).

**Xocalı şahidləri danışır**. - Bakı : Mütərcim, 2018. - 182 s. : rəngli foto.

**Qarabağ: dünən, bu** gün fotoşəkillərdə = Karabakh: Yesterday and Today : in photos = Карабах: вчера, сегодня : в фотоснимках = قراباغ الامس و الیوم الصور الفتوغرافیة : kitab-albom. - Bakı : İndiqo, 2007. - 200 s. : foto. - Azərbaycan, ingilis, rus və ərəb dillərində.

**Məğrur Y.** Gəlirəm, Qarabağ... - Bakı : Yazıçı, 2014. - 188 s. : foto.

**Məmmədli N.** Zəngulə. - Bakı : İdeal-Print, 2010. - 264 s. : foto.rəng.

**Məmmədov N.** İşğal altındakı tarixi - dini abidələrimiz. - Bakı : Nurlar NPM, 2015. - 96 s. : rəngli foto, foto, xəritə.

**Məmmədov S.** Xocalı soyqırımı. - Bakı : Kitab aləmi, 2010. - 16 s.

**Məmmədov S.** Tarixi saxtalaşdırmaq cinayətdir. - Bakı : Yazıçı, 2012. - 360 s. : rəngli foto, foto.- (cildli).

**Müharibə və tarixi** - mədəniyyət abidələrimiz : İşğal olunmuş

**Musaqızı S.** Azərbaycan terrorizmin caynağında. - Bakı : Təfəkkür, 2004. - 156 s.

**Müslümqızı S.** Dünya susmasın gərək = World should not keep silence : sənədli xronika. - Bakı : Yazıçı, 2014. - 84 s. : foto. - Azərbaycan və ingilis dillərində.

**Müslümqızı S.** Xocalı uşaqları - Qan içində qar çiçəyi = Дети Ходжалы - снежный цветок в крови = Children of Khojaly - bloody primroses : povest. - Bakı : Yazıçı, 2013. - 120 s. : rəngli foto. - Azərbaycan, rus və ingilis dillərində.

**Müslümqızı S.** Xocalıdan gələn var = Guest from Khojaly. - Bakı : [s. n.], 2008. - 254 s. : fot. - Azərbaycan və ingilis dillərində.

**Pənah G.** Tanrının unutduğu Xocalılar... : povest. - Bakı : UniPrint, 2014. - 142 s.

**Sonam B.** Qanlı dərə. - Bakı : [s. n.], 2004. - 44 s.

**Soyqırım : Erməni** terrorizmi : Mahmud Kaşkari adına Beynəlxalq Fondun "Soyqırım və köçkünlər probleminin ədəbi düşüncədə dəstəklənməsi" layihəsi. - Bakı : MBM, 2009. - 184 s. : foto.

**Soyqırım Muzeyi** v. - Bakı : Hərbi Nəşriyyat, 2017. - 152 s. - (cildli).

**Yaqublu N.** Xocalı soyqırımı. - Bakı : Elm və Təhsil, 2012. - 188 s. : fot.

# Xocalı - qan yaddaşımız

(metodik vəsait)

**Komputer yığımı**

**və dizayn:** **Könül Səmədzadə**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**

**E-mail:** info@clb.az.

**İnternet ünvawww.clb.az**